# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

11 (106) 17 may 2018-ci il İctimai-siyasi qəzet


## Prezident İlham Əliyev 9 May - Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib



***İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.***

*Tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.*

Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci Dünya müharibəsində keçmiş SSRİ-nin qazandığı tarixi Qələbədə çox böyük payı olan



Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddəüç hissəsi, aviasiya benzini və yüksəkkeyfiyyətli motor yağlarının 85-90 faizi Azərbaycanın payına düşüb.

Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus, Pribaltika cəbhələrində cəsarətlə vuruşublar. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferopolun, Odessanın, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya isə Yuqoslaviyanın azadlığı uğrunda fəal iştirak ediblər.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi



şücaətləri yaddaşlardan silinmir. Bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir. Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi. Ümummilli Lider onları



“Xalqımızın qızıl fondu” adlandırırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır. 9 May - Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir. Bu isə həmin kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir.

İkinci Dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 73 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

Prezident, Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin qarşısından keçdi.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə günü münasibətilə onları təbrik etdilər.

Mərasimdə Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

# Respublika Veteranlar Təşkilatında faşizm üzərində Qələbənin 73-cü ildönümü qeyd edilib

***Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı və Müdafiə Nazirliyi faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə İkinci Dünya müharibəsi veteranları üçün təntənəli bayram tədbiri keçirib***

Respublika Veteranlar Təşkilatının inzibati binasında Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi tərəfindən quraşdırılmış səyyar mətbəx və Böyük Vətən müharibəsi dövrünə aid hərbi geyimdə olan əsgər və zabitlər veteranlara nostalji hisslər yaşadaraq Qələbə bayramının sevincinə əlavə rəng qatıblar. Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında səslənən müharibə, Vətən, qəhrəmanlıq, sevgi haqqında Böyük Vətən müharibəsi illərinin mahnıları bu ovqatı daha da artırıb.

Tədbirdə Müdafiə Nazirliyinin, Respublika Veteranlar Təşkilatının əməkdaşları, veteranlar, ziyalılar və gənclər iştirak ediblər.

Respublika Veteranlar Təşkilatının sədri Tofiq Ağahüseynov tədbir iştirakçılarını Qələbənin 73-cü ildönümü münasibətilə səmimi qəlbdən təbrik edib.

Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov əlamətdar gün münasibətilə bütün veteranları təbrik edib, Böyük Vətən müharibəsində Azərbaycan xalqının həm ön, həm də arxa cəbhədəki fədakarlığından danışıb. Bildirib ki, Böyük Vətən müharibəsində Qələbənin qazanılmasında Azərbaycan xalqının qəhrəmanlığı şanlı tariximizin parlaq səhifələrindəndir. Qələbə Gününün canlı yaddaşı isə veteranlardır.













Veteranlar bu Qələbənin yükünü çiyinlərində daşıyıblar. Bu tarixin ən əlamətdar anı isə Qələbə Günüdür. Xalqımız haqlı olaraq öz veteranları ilə fəxr edir.

Veteranlar çıxışlarında onlara göstərilən diqqətə və qayğıya görə minnətdarlıq edib, keçdikləri döyüş yolu, həyatlarının ən keşməkeşli dövrü olan Böyük Vətən müharibəsi haqqında xatirələrini bölüşüblər. Onlar üçün hazırlanmış İkinci Dünya müharibəsini xatırladan ab-hava veteranlar tərəfindən məmnunluqla qarşılanıb. Veteranlar göstərdikləri diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Çıxışlarda, həmçinin Qələbə bayramını tezliklə işğal altındakı torpaqlarımızda da qeyd ediləcəyinə əminlik ifadə olunub.

Hərbi orkestrin, eləcə də bəstəkar Şahin Musaoğlunun hərbi-vətənpərvərlik mövzusunda mahnılarını səsləndirən "Cənab leytenant" patriot qrupunun, Nuray Rəhmanın və digərlərinin ifasındakı musiqi proqramı veteranların bayram əhval-ruhiyyəsini daha da artırıb.

Sonda veteranlara hədiyyələr təqdim olunub.

AZƏRBAYCAN VETERANI

# Naxçıvanda 9 May Qələbə Günü qeyd olunub

*Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Xatirə kompleksinə gələrək müharibə veteranları ilə görüşüb, onları İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin 73-cü ildönümü münasibətilə təbrik edib. Ali Məclisin Sədri kompleksdəki abidənin önünə gül dəstəsi qoyub, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsinə dərin ehtiramını bildirib.*

Mərasim iştirakçıları və ictimaiyyətin nümayəndələri abidə önünə gül dəstələri düzüblər.

Naxçıvanlılar da müharibədə qəhrəmancasına döyüşmüş, qələbənin qazanılmasında öz töhfələrini veriblər. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınıb, göstərdikləri igidliklərə görə 3 həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, bir nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə, müharibə iştirakçılarından 600-ə yaxını isə orden və medallarla təltif olunub.

Ölkəmizdə müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərilir. Bu



diqqət və qayğının əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərimiz Naxçıvan Muxtar Respublikasının rəhbəri olarkən muxtar respublikada bu bayram qeyd olunub, Ulu Öndərin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə 9 May ölkəmizdə Qələbə Günü kimi rəsmiləşdirilib, dövlət bayramları sırasına daxil edilib, müharibə veteranlarının sosial müdafiəsi gücləndirilib. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".

Ümummilli lider Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranlara xüsusi qayğı və həssaslıqla yanaşır. Ölkə Prezidentinin "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2018-ci il 20 aprel tarixli Sərəncamı bu təbəqədən olan vətəndaşlara göstərilən qayğının daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respubli-kasında da müharibə veteranlarına xüsusi qayğı ilə yanaşılır, onların sosial müdafiəsi gücləndirilir, veteranlar sanatoriya və kurortlara göndərilir, minik avtomobilləri ilə təmin olunurlar.

## Mayın 9-da faşizmi üzərində tarixi Qələbənin ildönümü Naxçıvan Muxtar Respublikasının rayonlarında yüksək əhval-ruhiyyə ilə qeyd olunub

*Şərur rayonu*

Muxtar respublikanın ən böyük bölgəsi olan Şərur rayonunda tədbir iştirakçıları əvvəlcə Şərur şəhərində 1941-1945-ci illər müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib, abidə önünə tər güllər düzüblər.

Şərur Olimpiya-İdman Kompleksində davam etdirilən tədbirdə əvvəlcə Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov çıxış edərək faşizm üzərində Qələbənin qazanılmasında azərbaycanlıların da göstərdikləri misilsiz igidlik və qəhrəmanlıqları, respublikamızın bu müharibədə təkcə canlı qüvvə ilə deyil, təbii resursları ilə də fəal iştirak etdiyini faktlarla nəzərə çatdırıb.

"Şərur rayonundan müharibəyə gedən 4 min 7 nəfərin 394-ü həlak olub, 1395-i itkin düşüb. Müharibədən 2 min 218 nəfər doğma yurduna qayıda bilib. Hazırda rayonda 6 müharibə iştirakçısı, həlak olmuş müharibə veteranlarının 102 dul arvadı, 133 nəfər isə arxa cəbhə veteranı var", - deyən Kamal Cəfərov bildirib.

*Babək rayonu*

Qələbənin 73-cü ildönümü münasibətlə keçirilən tədbirdə Babək Rayon İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların kollektivləri, eləcə də rayon



sakinləri iştirak ediblər.

Əvvəlcə İkinci Dünya müharibəsində həlak olmuş babəklilərin xatirəsinə rayon mərkəzində ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, müharibədə həlak olmuş qəhrəman övladlarımızın xatirəsi ehtiramla yad edilib.

Sonra tədbir çay süfrəsi arxasında davam etdirilib. Tədbirdə Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxış edərək bildirib ki, 1941-1945-ci illər müharibəsinə Babək rayonundan 1275 nəfər yollanıb. Müharibəyə gedənlərdən 1058-i qəhrəmancasına həlak olub, bir çoxu müxtəlif orden və medallarla təltif edilib.

Ordubad rayonu

Ordubad rayonunda Qələbənin 73-cü ildönümünə həsr olunmuş tədbirdən əvvəl 1941-1945-ci illər müharibəsi iştirakçılarının şərəfinə ucaldılmış Xatirə kompleksi ziyarət edilərək abidə önünə gül dəstələri qoyulub.

Tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edərək 1941-1945-ci illər müharibəsində Qələbənin 73-cü ildönümü münasibətilə veteranları təbrik edib. Bildirib ki, Ordubad rayonunun qəhrəman övladları da müharibə illərində



həm ön, həm də arxa cəbhədə böyük fədakarlıq və igidlik nümunələri göstəriblər. Ordubad rayonundan cəbhəyə yollanan Nəcəfqulu Rəfiyev 1944-cü ilin yayında Minsk şəhəri yaxınlığında gedən döyüşlərdə, Baronoviçi şəhərinin azad edilməsində şücaət və qəhrəmanlıq göstərib, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 9 sentyabr tarixli Fərmanı ilə "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb. Müharibə başlanandan Ordubad rayonundan cəbhəyə 3 min 387 nəfər yollanıb, əksəriyyəti qanlı döyüşlərdə qəhrəmancasına həlak olub.

*Culfa rayonu*

Rayon ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə rayon mərkəzində 1941-1945-ci illər müharibəsi iştirakçılarının xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri qoyulub, müharibədə həlak olmuş qəhrəman həmyerlilərimizin xatirəsini ehtiramla yad edilib.

Tədbirdə çıxış edən Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev müharibə veteranlarını Qələbə Günü münasibətilə təbrik edərək vurğulayıb ki, bu Qələbənin qazanılmasında culfalıların da rolu olub. 1941-1945-ci illər müharibəsində, ümumilikdə, Culfa rayonundan 1200-ə qədər insan iştirak edib və yarıdan çoxu həlak olub. Onların böyük əksəriyyəti döyüşlərdə göstərdiyi şücaətlərə




görə müxtəlif orden və medallarla təltif edilib.

*Kəngərli rayonu*

Kəngərli rayonunda keçirilən tədbirin iştirakçıları əvvəlcə Qıvraq qəsəbəsində 1941-1945-ci illər müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib, abidə önünə tər güllər düzüblər. Tədbir Qıvraq qəsəbəsindəki şadlıq sarayında təşkil olunmuş çay süfrəsi arxasında davam etdirilib.

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov tədbirdə çıxış edərək veteranları Qələbə münasibətilə təbrik edib. Bildirib ki, İkinci Dünya müharibəsi zamanı Naxçıvan Muxtar Respublikasının əhalisi də döyüşlərdə şücaətlə iştirak edib, cəbhə üçün əllərindən gələni əsirgəməyib. O odlu-alovlu illərdə fədakarlıq göstərən azərbaycanlılardan ibarət təşkil edilmişdir.

*Şahbuz rayonu*

Şahbuz şəhərindəki "Yeni Batabat" şadlıq sarayında keçirilən tədbirdən əvvəl iştirakçılar 1941-45-ci illər müharibəsində iştirak edən qəhrəman oğulların xatirəsinə ucaldılmış abidənin önünə tər qərənfillər qoyublar.

Rayon icra hakimiyyətinin başçısı Rəfael Babayev veteranları Qələbə Günü münasibətilə təbrik edib. Bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Qələbənin qazanılmasında xidməti olan insanlara daim diqqət göstərib, 1941-1945-ci illərin müharibə veteranlarını "Azərbaycan xalqının qızıl fondu" adlandırıb.



*Sədərək rayonu*

Əhəmiyyətli tarixi hadisələrin şahidi olan, düşmənlə bir addımlıqda ayıq-sayıq dayanan sərhəd bölgəmiz Sədərək rayonunda 1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində qazanılan Qələbənin 73-cü ildönümü münasibətilə keçirilən tədbir bu bölgə sakinləri üçün ikiqat əhəmiyyət daşıyır. Çünki bu torpaq elə alman faşizminə bərabər olan erməni vandalizminin əsassız torpaq iddiaları ucbatından dəfələrlə hücumlara məruz qalıb. Lakin sədərəklilər mənfur düşmən qarşısında əyilməyiblər, bu qədim yurd yerinin düşmən tapdağına çevrilməməsi üçün qəhrəmanlıq göstəriblər. O döyüşlərdə çoxlu şəhidlər verilib.

Tədbirdən əvvəl rayon ictimaiyyətinin nümayəndələri, müharibə veteranları, rayonun müxtəlif idarə, müəssisə və təşkilatlarının əməkdaşları Sədərək kəndindəki Şəhidlər xiyabanına gedərək burada 1941-1945-ci illər və Azərbaycan Vətən müharibəsi iştirakçılarının əziz xatirəsinə ucaldılan abidələrin önünə və burada uyuyan türk əsgərinin məzarı üzərinə gül dəstələri qoyublar. Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra çay süfrəsi arxasında davam etdirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Həbib İbrahimov çıxış edərək bildirib ki, İkinci Dünya müharibəsində Sədərək kəndindən 462 nəfər iştirak edib. Onların 263 nəfəri qəhrəmancasına həlak olub.

Veteranlar dövlətimizin onlara göstərdiyi qayğıdan bəhs edərək öz minnətdarlıqlarını bildiriblər.

AZƏRBAYCAN VETERANI

# Bakıda Böyük Qələbənin 73-cü ildönümü qeyd edilib



Mayın 9-da Nərimanov rayonunda yerləşən “Qardaşlıq Məzarlığı” Əbədi Xatirə Kompleksində Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü ilə əlaqədar təntənəli bayram tədbiri keçirilib.

Nərimanov Rayon İcra Hakimiyyətinin rəhbərliyinin, Böyük Vətən müharibəsi veteranlarının, Milli Məclisin deputatlarının, MDB ölkələrinin Azərbaycandakı səfirlərinin və digər akkreditə olunmuş nümayəndələrinin, hərbçilərin, gənclərin, rayon ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib və Böyük Vətən müharibəsində həlak olanların əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilib.

Sonra əllərində MDB dövlətlərinin bayraqlarını tutmuş gənc şakinlərin Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidənin önündən fəxri keçidi olub.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Rasim Musabəyov Azərbaycan xalqının faşizm üzərində tarixi Qələbəyə böyük töhfələr verdiyini, bu şanlı zəfərin əldə olunmasında çox böyük payı olan xalqımızın 640 mindən çox oğul və qızını cəbhəyə yola saldığını, onların təxminən yarısının döyüşlərdə həlak olduğunu bildirib. Qeyd edilib ki, Azərbaycanın 130-dan çox vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif olunub.

Rasim Musabəyov deyib: “Hər il “Qardaşlıq Məzarlığı” Əbədi Xatirə Kompleksində faşizm üzərində Qələbənin qeyd olunması gözəl ənənəyə çevrilib. İnsanlar çalışmalıdır ki, dünyada bir daha bu cür müharibələr olmasın. Biz insanlar dünyada sülhün daimi olması üçün əlimizdən gələni etməliyik. Hazırda dünyada bir sıra münaqişələr mövcuddur. Azərbaycan bir ölkə kimi daima sülhə dəstək verir. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini istəyirik. Bu, bir daha Azərbaycanın sülh tərəfdarı olduğunun sübutudur”.





MDB ölkələri səfirləri adından veteranları təbrik edən Qazaxıstanın Azərbaycandakı səfiri Beybit İsabayev bildirib ki, hər il 9 May - Qələbə Günü münasibətilə “Qardaşlıq Məzarlığı” abidəsi önündə bu mərasimin keçirilməsi ənənə halını alıb.

Azərbaycanın müharibə illərində möhtəşəm Qələbənin əldə olunmasında verdiyi layiqli töhfələri böyük qəhrəmanlıq adlandıran səfir deyib: “Mənim atam və babam da İkinci Dünya müharibəsində iştirak edib, ön cəbhədə vuruşublar. Mən bu qələbənin qiymətini çox yaxşı başa düşürəm. Bu müharibə bəşəriyyət tarixində ən faciəli səhifələrdəndir. Biz daim qəhrəmanları xatırlayacağıq, onları heç vaxt unutmayacağıq”.

Diplomat xalqımızın faşizmə qarşı mübarizədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də qəhrəmanlıq göstərdiyini vurğulayıb, şanlı Qələbəyə Bakı neftinin töhfəsinin də əvəzsiz olduğunu söyləyib.

Böyük Vətən müharibəsi veteranı 102 yaşlı Hilal İbrahimov ön cəbhədə vuruşduğu günlərin xatirələrini bölüşüb. Azərbaycanın hazırda hər sahədə, xüsusilə iqtisadi baxımdan güclü dövlətə çevirdiyini vurğulayan Hilal İbrahimov müharibə veteranlarına göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə bütün veteranlar adından təşəkkür bildirib.



Tədbir iştirakçıları 1941-1945-ci illər müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidənin önünə əklil və gül dəstələri qoyublar.

# Böyük Vətən müharibəsində Gəncədən 16 min nəfər ön cəbhədə vuruşub



Gəncədə 9 May - faşizm üzərində Qələbənin 73-cü ildönümünə həsr olunan tədbir keçirilib.

Xan bağında, Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun məzarüstü abidəsi önündə təşkil edilən tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, Böyük Vətən müharibəsi iştirakçıları, şəhər rəsmiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun məzarı önünə əklil qoyub, dövlət himni səsləndirilib, yaylım atəşi açılıb.

Gəncə Dövlət Dram Teatrının kollektivi ədəbi-bədii kompozisiya ilə çıxış edib.



Elmar Vəliyev Böyük Vətən müharibəsi iştirakçıları ilə görüşərək onlarla söhbət edib. Veteranlar onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına və şəhər rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Gəncə şəhər veteranlar təşkilatının sədri Yusif Məmmədov bildirib ki, Böyük Vətən müharibəsi illərində Gəncədən 16 min nəfər ön cəbhədə vuruşub. Onlardan 2000 nəfəri döyüşlərdə həlak olub. Hazırda Gəncədə 11 Böyük Vətən müharibəsi iştirakçısı yaşayır. Arxa cəbhə iştirakçılarının sayı isə 70-dən artıqdır. Tədbirin davamında öz orden və medalları ilə fərəhlənən müharibə veteranlarının xatirələri dinlənilib, onlarla şəkillər çəkdirilib.

# Sumqayıt məktəblilərinin paradı

1941-1945-ci illər müharibəsində həlak olmuş qəhrəmanların xatirəsinə Sumqayıtın mərkəzində ucaldılmış abidənin önündə 9 May - Qələbə Günü münasibətilə ümumşəhər tədbiri təşkil edilib.

Sumqayıt Şəhər İcra



Hakimiyyətinin əməkdaşları, Milli Məclisin deputatları, bələdiyyə, sənaye müəssisələri, idarə və təşkilat rəhbərləri, özəl sektorun, şəhər ictimaiyyətinin nümayəndələri abidənin önünə gül dəstələri düzüblər.



Azərbaycanın dövlət himni səsləndirilib.

Sumqayıt şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov Sumqayıtın bir qrup müharibə və əmək veteranı ilə görüşüb, səmimi söhbət edib. Veteranlar ümummilli lider Heydər Əliyevin haki-



miyyətə qayıdışından sonra müharibə veteranlarına, onların ailə üzvlərinə diqqət və qayğının bərpa olunduğun minnətdarlıqla qeyd edib, şəhərdə aparılan quruculuq işlərini dəstəklədiklərini vurğulayıblar.

Tədbir paradla davam edib. Hərbi orkestrin musiqi sədaları altında N saylı hərbi hissənin əsgərləri nizami addımlarla şəhər sakinlərinin qarşısında keçiblər. Sumqayıtın tam orta məktəblərinin komandaları müxtəlif növ hərbi qoşunların formasında parada qoşulublar.

Parad sumqayıtlılarda böyük ruh yüksəkliyi yaradıb. Küçələr boyunca düzülən şəhər sakinləri məktəbliləri alqışlarla qarşılayıblar.

# Faşizm üzərində Qələbənin 73-cü ildönümü Tovuzda qeyd olunub

Faşizm üzərində tarixi Qələbənin 73-cü ildönümü münasibətilə Tovuzdakı Qəhrəmanlar parkında təntənəli mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, rayon rəhbərliyi, müharibə və əmək veteranları, rayon ictimaiyyətinin nümayəndələri parkda Sovet İttifaqı qəhrəmanlarının abidəsinin və "1941-1945" abidə kompleksinin önünə tər çiçəklər düzüb, müharibədə həlak olmuş soydaşlarımızın xatirəsini ehtiramla yad ediblər.

Rayon icra hakimiyyətinin başçısı Tofiq Zeynalov mərasimdə çıxış



edərək veteranları bayram münasibətilə təbrik edib. Qeyd edib ki, Böyük Vətən müharibəsində 7790 tovuzlu iştirak edib. Onların böyük əksəriyyəti müharibədə həlak olub. Müharibədə tovuzlulardan Mərdan Musayev, Yusif Sadıqov və Məstan Əliyev "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb, yüzlərlə döyüşçü orden və medallarla təltif olunub. Hazırda rayonda 18 veteran var.

Tədbirdə ölkəmizdə müharibə veteranlarına göstərilən diqqət və qayğıdan da danışılıb.

Sonda müharibə veteranları üçün bayram süfrəsi açılıb.

AZƏRBAYCAN VETERANI

# Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş azərbaycanlıların qəhrəmanlığı heç vaxt unudulmayacaq

***Faşizm üzərində Qələbənin 73-cü ildönümü respublikamızın hər yerində olduğu kimi, Qarabağ bölgəsində də təntənəli şəkildə qeyd edilib.***

*Tərtər*

Tərtər rayon rəhbərliyi, ziyalılar, ictimaiyyət nümayəndələri, müharibə veteranları, gənclər Böyük Vətən müharibəsində həlak olmuş tərtərlilərin xatirəsinə ucaldılan abidə kompleksi önündə çiçək dəstələri düzüb, şəhidlərin ruhuna dualar oxuyublar.

Burada keçirilən tədbirdə çıxış edən Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov müharibə veteranlarını Qələbə bayramı münasibətilə təbrik edib, onlara xoş arzularını çatdırıb. Bildirib ki, müharibədə 2417 nəfər tərtərli alman faşizminə qarşı igidliklə döyüşüb, onlardan 1079 nəfəri həlak olub.

Müharibə veteranları çıxış edərək onlara göstərilən yüksək dövlət qayğısına görə Prezident İlham Əliyevə minnətdarlığını bildiriblər.

Böyük Vətən müharibəsi veteranlarına hədiyyələr verilib.

*Ağdam*

Ağdam rayon ictimaiyyətinin nümayəndələri, veteranlar, məktəblilər Əfətli kəndində Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılmış Vətən fədailəri abidə kompleksinin önünə gül dəstələri düzüblər. Müharibədə həlak olan həmvətənlərimizin xatirəsi ehtiramla yad edilib. Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədov, Qarabağ Müharibəsi Əlil-ləri,



Veteranları və Şəhid Ailələri İctimai Birliyi Ağdam rayon şöbəsinin sədri Baxşeyiş Hətəmli, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəisi Elxan Feyziyev mərasimdə çıxış edərək, İkinci Dünya müharibəsi, azərbaycanlıların müharibədə iştirakı, ön və arxa cəbhələrdə göstərdiyi misilsiz rəşadətdən, faşizm üzərində Qələbənin qazanılmasında rolundan danışıblar. Bildirilib ki, Böyük Vətən müharibəsində 7300 nəfərdən artıq ağdamlı alman faşizminə qarşı igidliklə döyüşüb, onlardan 3600 nəfərdən çoxu həlak olub.

Böyük Vətən müharibəsi veteranlarına hədiyyələr verilib. Müharibə veteranları çıxış edərək, onlara göstərilən yüksək dövlət qayğısına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Tədbir məktəblilərin ifasında kompozisiya ilə başa çatıb.

Rayon rəhbərliyi və ictimaiyyət nümayəndələri sonra Qaradağlı kəndində Böyük Vətən müharibəsi veteranı Əsgər Zeynalovun evinə baş çəkiblər. Çay süfrəsi ətrafında edilən söhbət zamanı veteranlar müharibə ilə bağlı xatirələrini danışıb, onlara göstərilən yüksək dövlət qayğısından razılıqlarını ifadə ediblər.



*Beyləqan*

Faşizm üzərində Qələbənin 73-cü ildönümü Beyləqanda silsilə tədbirlərlə qeyd olunub. Beyləqan rayon ictimaiyyətinin nümayəndələri, müharibə veteranları, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin, hüquq mühafizə orqanlarının əməkdaşları, N saylı hərbi hissənin əsgər və zabitləri Birinci Şahsevən kəndində Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovun ev muzeyini ziyarət edib, büstü önünə gül dəstələri qoyublar.



Tədbirdə çıxış edən hərbçilər bildiriblər ki, bu gün Azərbaycan oğulları Böyük Vətən müharibəsində iştirak edən ata-babalarımızın qəhrəmanlıq yolunu şərəflə davam etdirirlər. Aprel döyüşləri zamanı qazanılan qələbə Azər-baycan əsgərinin gücünü və qüdrətini bir daha göstərdi. Azərbaycan Ordusu Böyük Vətən müharibəsi illərində göstərdiyi qəhrəmanlıqları təkrar etməyə hər an hazırdır və onlar Ali Baş Komandanın əmrini gözləyir.

Tədbir Beyləqan rayon mədəniyyət işçilərinin hazırladığı kompozisiya ilə davam edib.

*Ağcabədi*

Alman faşizmi üzərində Qələbənin qazanılmasının 73-cü ildönümü münasibətilə İkinci Dünya müharibəsi illərində həm ön cəbhə bölmələrində, həm də arxa cəbhədə böyük qəhrəmanlıq və igidlik nümunələri göstərmiş Ağcabədi sakinləri ilə görüş keçirilib.

Ağcabədi Rayon İcra Hakimiyyətinin və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin nümayəndələri Böyük Vətən müharibəsinin veteranlarının evlərinə gedərək, onları təbrik edib, bayram sovqatları veriblər. Çay süfrəsi arxasında söhbət zamanı müharibə veteranları döyüş xatirələrindən danışıb, onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını bildiriblər.



## Ağsuda İkinci Dünya müharibəsinin iştirakçıları ilə görüş olub

İkinci Dünya müharibəsində Ağsu rayonundan 3520 nəfər iştirak edib və onlardan 1000 nəfərə yaxını geri qayıtmayıb. İndi Ağsuda müharibə iştirakçılarından cəmi 3 nəfəri sağ qalıb.



Rayon icra hakimiyyətinin təşəbbüsü ilə mayın 9-da qanlı müharibənin alovu içindən sağ çıxıb geri dönən veteranlarla yaşadıqları mənzillərdə görüş keçirilib. İcra hakimiyyəti başçısının müavini Sevil Mirzəliyevanın, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəisi polkovnik-leytenant Nizami Heybətovun, Ağsu rayon Veteranlar Təşkilatının sədri Cəmaləddin Zeynov, Ağsu şəhər bələdiyyəsinin sədri İlham Nurəhmədovun iştirak etdikləri ilk görüş Qaravəlli kəndində 94 yaşlı Əlmövsüm İmanovla olub. Daha sonra Ülgüc kəndində 94 yaşlı Əbülfəz Şıxıyevlə və Ağsuda şəhər sakini 98 yaşlı Əlpənah Şirinovla görüş keçirilib.

Görüş zamanı veteranların arzu və istəkləri dinlənilib, rayon icra hakimiyyəti adından onlara hədiyyələr verilib, maddi yardım göstərilib.

Qeyd edək ki, Ağsu rayonundan İkinci Dünya müharibəsinə 3520 nəfər yola salanmışdır, 1560 nəfəri müharibən qayıtmışdırlar.

## Müharibə veteranlarının şərəfli ömür yolu gələcək nəsillər üçün hər zaman örnək olacaq



Rayon rəhbərliyi, İkinci Dünya müharibəsi veteranı Vanuş Məmmədov və ictimaiyyətin nümayəndələri əvvəlcə 1941-1945-ci illərin Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılmış "Xilaskar əsgər" abidəsinin önünə gül-çiçək düzüb, igid həmvətənlərin xatirəsini ehtiramla yad ediblər.

Sonra bayram tədbiri Heydər Əliyev Mərkəzinin kafesində çay süfrəsi ətrafında davam edib.

Rayon ictimaiyyətinin nümayəndələri Ulu Öndərin Mərkəzin həyətində ucaldılmış abidəsi önünə gül dəstələri düzüblər.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Veteranlar Təşkilatının sədri Ənvər Kərimov və başqaları çıxış edərək, müharibə illərində xalqımızın igid oğul və qızlarının göstərdikləri qəhrəmanlıqlardan danışıblar. Vurğulanıb ki, hər yerdə olduğu kimi, Zaqatala rayonunda da müharibə veteranları yüksək diqqət və qayğı ilə əhatə olunublar. İllər keçdikcə onların sıraları azalır. Hazırda Zaqatala rayonunda iki nəfər İkinci Dünya müharibəsi iştirakçısı yaşayır. Onların qəhrəmanlıqlarla dolu şərəfli ömür yolu zaqatalalı gənclərə əsl nümunədir.

# İkinci Dünya müharibəsi illərində Xaçmazdan cəbhəyə 8539 nəfər yollanıb

İkinci Dünya müharibəsinə yollanan 8 min 539 xaçmazlıdan 3 min 400 nəfərə yaxını geri qayıtmayıb. Böyük Vətən müharibəsində iştirak edən xaçmazlılardan yalnız dördü yaşayır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə Xaçmazda Böyük Vətən müharibəsində tarixi Qələbənin 73-cü ildönümü münasibətilə keçirilən tədbirdə məlumat verilib.

Mərasim iştirakçıları İkinci Dünya müharibəsində həlak olan xaçmaz-



lıların xatirəsinə ucaldılan abidəni ziyarət ediblər.

Çıxış edənlər bildiriblər ki, İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə böyük qəhrəmanlıq və igidlik nümunələri göstərib. Bakı nefti faşizm üzərində Qələbə qazanılmasında mühüm rol oynayıb.

Sonra Qələbə Günü münasibətilə müharibə veteranları üçün ziyafət təşkil olunub.

## Qəhrəmanın abidəsi önündə faşizm üzərində qələbənin 73-cü ildönümü qeyd olunub

Binəqədi rayonundakı İbrahimpaşa Dadaşov küçəsində Sovet İttifaqı Qəhrəmanı Həbibulla Hüseynovun xatirəsinə ucaldılmış abidə kompleksinin önündə faşizm üzərində qələbə-



nin 73-cü ildönümü qeyd olunub.

Tədbir rayon icra hakimiyyəti, Binəqədi Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı və Sovet İttifaqı Qəhrəmanı Həbibulla Hüseynov adına 83 nömrəli məktəb-liseyin birgə təşkilatçılığı ilə keçirilib.

Rayon icra hakimiyyətinin baş məsləhətçisi Elnur Məmmədov, 1 saylı sahə inzibati ərazi dairəsi üzrə nümayəndə Ləman Əliyeva,

Binəqədi Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Telman Hətəmov, 83 nömrəli məktəb-liseyin direktoru Nəbi Mahmudov və Həbibulla Hüseynovun ailə üzvləri adından Elmira Hüseynova çıxış edərək İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbənin qazanılmasında xalqımızın göstərdiyi igidlik nümunəsini, azərbaycanlı döyüşçülərin keçdikləri döyüş yolunu xatırladıb, veteranları və tədbir iştirakçılarını təbrik ediblər.

Tədbirdə 83 nömrəli məktəb-liseyin şagirdlərinin ifasında vətənpərvərlik mövzusunda şeir və mahnılar səslənib.

## Tibb Universitetində Böyük Vətən müharibəsi veteranları ilə görüş olub

Azərbaycan Tibb Universitetinin (ATU) rektoru, professor Gəray Gəraybəyli rəhbərlik etdiyi bu, ali təhsil ocağında çalışan İkinci Dünya müharibəsi veteranları ilə görüşüb.Rektor alman faşizminə qarşı döyüşlərdə 600 mindən çox həmyerlimizin vuruşduğunu, onların yarıdan çoxunun həlak olduğunu xatırladıb: “Düşmən üzərində qələbə qazanılması üçün yüz minlərlə soydaşımız canından keçib. Azərbaycanlılardan təşkil edilən diviziyalar müharibə tarixinə parlaq səhifələr yazıb, arxa cəbhədə isə ata-babalarımız ön cəbhədə uğur qazanılması üçün böyük fədakarlıq göstəriblər. Biz indiki firavan həyat üçün həmin qələbənin qazanılmasında əməyi



olan hər kəsə minnətdar olmalıyıq”.

Görüş zamanı çıxış edən veteranlar cəbhə xatirələrini bölüşüb, onlara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Sonra universitetdə çalışan arxa cəbhə veteranlarına mükafatlar verilib, xatirə şəkli çəkilib.

# Faşizm üzərində Qələbənin 73-cü ildönümü cənub bölgəsində də təntənə ilə qeyd olunub

Mayın 9-da ölkəmizin cənub bölgəsində İkinci Dünya müharibəsində alman faşizmi üzərində tarixi Qələbənin 73-cü ildönümü təntənə ilə qeyd olunub.

Astarada keçirilən bayram tədbirində rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev, İkinci Dünya müharibəsinin iştirakçıları, Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və ictimaiyyətin nümayəndələri Qəhrəmanlar bağında Sovet İttifaqı



qəhrəmanları Ziya Bünyadovun, Mirzə Cəbiyevin və İlya Koverinin, “Şöhrət” ordenlilər Ağahəsən Nəhmətovun və Rəhmət Hətəmovun, Milli Qəhrəman Yalçın Nəsirovun abidələri önünə əklillər və gül dəstələri düzərək, qəhrəmancasına həlak olan Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər.



Çıxışlarda qeyd olunub ki, İkinci Dünya müharibəsində 5612 astaralı döyüşçü iştirak edib. Onlardan 1064-ü həlak olub, 827 nəfəri isə itkin düşüb.

Lənkəranda İkinci Dünya müharibəsində həlak olanların şərəfinə ucaldılmış abidə-kompleksin önündə keçirilən mərasimdə şəhər icra hakimiyyətinin başçısı Taleh Qaraşov, müharibə və əmək veteranları, hüquq mühafizə orqanlarının və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları “Naməlum əsgər” abidə-kompleksinin önünə



əklillər və gül dəstələri düzərək Böyük Vətən müharibəsində həlak olan azərbaycanlıların xatirəsini ehtiramla yad ediblər.

Mərasim iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun adını daşıyan xatirə parkında davam etdirilib.

9 May - Qələbə Günü münasibətilə Cəlilabaddakı xatirə parkındakı “Ana” abidəsi önündə keçirilən tədbirdə İkinci Dünya müharibəsində həlak olan cəlilabadlı döyüşçülərin xatirəsi ehtiramla yad edilib.

Bayram tədbirində çıxış edən Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov Böyük Vətən müharibəsinin iştirakçılarını əlamətdar gün münasibətilə təbrik edərək onlara ən xoş arzularını çatdırıb.

Masallıdakı Qəhrəmanlar parkında İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov, müharibə və əmək veteranları, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Mərasim iştirakçıları İkinci Dünya müharibəsində həlak olmuş masallıların xatirəsinə ucaldılan abidə-kompleksinin önünə gül dəstələri düzərək xatirələrini ehtiramla yad ediblər.

Lerik Rayon İcra Hakimiyyətində İkinci Dünya müharibəsində alman faşizmi üzərində tarixi Qələbənin 73-cü ildönümü ilə əlaqədar ümumrayon tədbiri keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Lerik şəhərində Böyük Vətən və Qarabağ müharibələrində həlak olanların xatirəsinə ucaldılmış abidə-kompleksinin önünə gül dəstələri düzərək müharibədə həlak olanların xatirəsini ehtiramla yad ediblər.

Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov tədbirdə çıxış edərək əlamətdar gün münasibətilə müharibə veteranlarına təbriklərini çatdırıb. O, İkinci Dünya müharibəsində faşizm üzərində Qələbədə Azərbaycan xalqının əvəzsiz rolundan, azərbaycanlıların döyüş meydanlarında və arxa cəbhədə göstərdikləri fədakarlıqlardan danışıb.

Qeyd olunub ki, İkinci Dünya müharibəsində Lerik rayonundan cəbhəyə yola salınan 6500 nəfərdən 1584-ü həlak olub, 3314 nəfər yaralanıb.

AZƏRBAYCAN VETERANI

# Azərbaycanlılar faşizm üzərində Qələbədə böyük pay sahibi olublar

***Salyanda faşizm üzərində Qələbənin 73-cü ildönümü münasibətilə tədbir keçirilib.***

Tədbirdə iştirak edən rayonun rəhbər işçiləri, veteranlar, ictimaiyyət nümayəndələri və gənclər əvvəlcə Böyük Vətən müharibəsində həlak olanların xatirə kompleksləri önünə gül dəstələri qoyublar.

Sonra Sovet İttifaqı qəhrəmanı Məhərrəm Dadaşovun abidəsi ziyarət olunub.



Veteranlarla görüşdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov qeyd edib ki, 1941-1945-ci illər savaşında tarixi Qələbənin qazanılmasında şücaət göstərən 600 mindən çox həmyerlimizin arasında 5726 nəfər salyanlı da olub. Onlardan 1516 nəfəri döyüşlərdə həlak olub və ya itkin düşüb, 3700 nəfər isə yaralanıb. Bu gün onların hər birinin xatirəsinin hamı üçün əziz olduğunu vurğulayan icra başçısı Qələbənin əldə edilməsində Azərbaycanın tarixi rolundan ətraflı söhbət açıb.

Mərasimdə çıxış edən müharibə veteranları onlara göstərilən yüksək dövlət qayğısına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



***Faşizm üzərindəki tarixi qələbənin qazanılmasında biləsuvarlıların da payı olub.***

O qanlı-qadalı illərdə cəbhəyə yollanan 4387 biləsuvarlıdan 700 nəfəri cəbhədə həlak olub, 400-ü əlil kimi qayıdıb, 788 nəfər isə göstərdiyi şücaətə görə orden və medallarla təltif edilib.

9 May - Qələbə Günündə rayon icra hakimiyyətinin rəhbərliyi veteranların evlərində olub, onlara baş çəkib, problem və qayğıları ilə maraqlanıblar. Görüşdə rayon icra hakimiyyəti başçısının müavini Ləman Yüzbaşova bayram münasibətilə təbriklərini çatdırıb və bildirib ki, rayonda yaşayan Böyük Vətən müharibəsi iştirakçıları hərtərəfli qayğı ilə əhatə olunublar. Müharibə iştirakçılarının şərəfli döyüş yolundan danışan natiq ulu öndər Heydər Əliyevin veteranlara diqqət və qayğısının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyib.

Cəbhə xatirələrini dilə gətirən veteranlar Azərbaycanda ordu quruculuğundan və ölkəmizin artan iqtisadi qüdrətindən danışıb, dövlətin onlara qayğısından razılıqlarını ifadə ediblər.



***Tarixi qələbənin 73-cü ildönümü İmişli rayonunda da qeyd olunub.***

Ümumrayon tədbirinin iştirakçıları 1941-1945-ci illər müharibəsi zamanı həlak olanların xatirəsinə ucaldılan abidə kompleksini ziyarət ediblər.

Mərasimdə çıxış edən İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev bildirib ki, Böyük Vətən müharibəsi illərində İmişli rayonundan 23-ü könüllü qadın olmaqla 4546 nəfər cəbhəyə yollanıb. Onlardan 2657 nəfəri sağ qalıb və müxtəlif əlillik dərəcəsi alaraq geri dönüb. Hazırda rayonda 5 veteran yaşayır ki, onlar da dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar. Qeyd olunub ki, o ağır illərdə azərbaycanlılar müxtəlif qoşun növlərində xidmət etməklə öz vəzifə borclarını şərəflə yerinə yetirib, düşmənə layiqli cavab veriblər. Həmçinin bildirilib ki, hər bir müharibə veteranının döyüş təcrübəsi, onların keşməkeşli həyat yolu gənclərimizə örnək olmalıdır.



Dövlət başçısı tərəfindən təqaüdlərinin artırılmasını minnətdarlıq hissi ilə qarşılayan veteranlar onlara göstərilən diqqət və qayğıya görə Prezidentimizə təşəkkür ediblər.

# II Dünya müharibəsində tarixi Qələbənin əldə edilməsində xalqımızın qəhrəmanlığı heç vaxt unudulmayacaq

Mayın 8-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) və "Etnoqlobus" Beynəlxalq Onlayn Analitik Mərkəzi "İkinci Dünya müharibəsində faşizm üzərində Qələbədə xalqlar dostluğu ideologiyasının rolu" mövzusunda birgə konfrans keçiriblər.

BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov tədbirdə çıxış edərək deyib ki, tarix bizə milliyyətçiliyin, faşizm ideologiyasının yaşamasının qeyri-mümkün olduğunu göstərib. Xalqlar dostluğu, birgəyaşayış hər zaman bu cür ideologiyalara qalib gəlib. Faşizm üzərində Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub.

Qeyd edilib ki, İkinci Dünya müharibəsindən uzun illər keçməsinə baxmayaraq, terroru özünə ideologiya seçmiş erməni milliyyətçiləri tərəfindən Dağlıq Qarabağda törədilən hadisələr, Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması hələ də millətçilik ideologiyasının nə qədər təhlükəli olduğunu göstərir. İkinci Dünya müharibəsində olduğu kimi, Azərbaycan xalqının mübarizliyi,



dözümlülüyü nəticəsində biz yenə də millətçilik və ifrat ideologiya üzərində qələbə qazanacağıq. Biz terrora qarşı multikulturalizmi önə çəkəcəyik, tolerantlığı rəhbər tutacağıq.

Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov deyib ki, xalqlar dostluğu faşizm üzərində Qələbənin əldə edilməsində çox böyük rol oynayıb. Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələri də bu prinsip əsasında birləşərək daim dövlətin yanında olublar, faşizm üzərində Qələbədə fəal iştirak ediblər.

Qeyd edilib ki, bu gün Azərbaycanda müharibə iştirakçılarına böyük diqqət və qayğı var. Ulu öndər Heydər Əliyev müharibə veteranlarına daim yüksək qayğı göstərirdi, onlarla bağlı müxtəlif sərəncamlar imzalanıb. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müharibə iştirakçılarının problemlərinin həlli, onların həyat səviyyəsinin yaxşılaşdırılması dövlətin siyasətinin əsas istiqamətlərdən birini təşkil edir. Xalqların dostluğu bu gün də öz aktuallığını qoruyur. Azərbaycanda tarixən bütün mədəniyyətlərə, dinlərə dözümlülük mövcud olub. Azərbaycanın heç bir bölgəsində hansısa şəxs dininə, milliyyətinə görə ayrı-seçkiliklə üzləşmir. Azərbaycan xaricə təkcə təbii sərvətlər deyil, eyni zamanda, tolerantlıq da ixrac etmək gücündədir.

"Rusiyanın cənubunun təhlili" dövri nəşriyyatının baş redaktoru Yevgeni Mixaylov xalqların dostluğunun tarixi Qələbənin əldə edilməsində rolu barədə fikirlərini bölüşüb.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov alman faşizmi üzərində Qələbənin əldə olunmasında xalqımızın misilsiz xidmətlərindən danışıb. Qeyd edib ki, azərbaycanlılar ön və arxa cəbhədə böyük qəhrəmanlıqlar göstəriblər.

Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzini və yüksəkkeyfiyyətli yağların 85-90 faizi Azərbaycanın payına düşürdü.

Tədbirdə digər çıxış edənlər İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin əldə edilməsində Azərbaycan xalqının böyük rolunun olduğunu, 9 May - Qələbə Gününün tarixə qızıl hərflərlə yazıldığını vurğulayıblar. Bildirilib ki, İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının qəhrəmanlığı heç vaxt yaddaşlardan silinməyəcək. Bu qəhrəmanlıq gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.

## Azərbaycan dövləti müharibə veteranlarının problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşır

Mayın 9-da Böyük Vətən müharibəsində tarixi Qələbənin 73-cü ildönümü münasibətilə Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Yasamal rayonundakı abidəsi önündə veteranlarla görüş keçirilib.

Yasamal rayon icra hakimiyyətinin, hüquq mühafizə orqanlarının, idarə və müəssisə rəhbərliyinin və kollektivlərinin, həmçinin müharibə və əmək veteranlarının iştirak etdikləri tədbirdə əvvəlcə Mehdi Hüseynzadənin abidəsi önünə əklillər, gül–çiçək dəstələri düzülüb. Sonra müharibə veteranları ilə görüş keçirilib.



Görüşdə Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov çıxış edərək bildirib ki, İkinci Dünya müharibəsində faşizm üzərində Qələbədən 73 il keçir. Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci Dünya müharibəsində SSRİ-nin qazandığı şanlı Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Əziz Əzizov ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra müharibə veteranlarına dövlət tərəfindən daim diqqət və qayğı göstərildiyini bildirib, bu siyasətin Prezident İlham Əliyev tərəfindən bu gün də davam etdirildiyini vurğulayıb. Qeyd edilib ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra müharibə veteranlarının hüquqları bərpa edilib. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır, 9 May - Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir. Bu isə həmin kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir.

Tədbirdə iştirak edən veteranlar Azərbaycan dövlətinin onların problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşdığını bildiriblər.

## Mayın 8-də Daxili İşlər Nazirliyinin (DİN) Əlahiddə Çevik Polis Alayında 1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində qazanılan tarixi Qələbənin 73-cü ildönümü ilə əlaqədar tədbir keçirilib.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, alay komandiri, polis general-mayoru Zaur Abdullayev insanların ölümünə, bəşəri maddi-mədəni irsin dağıdılmasına, şəhərlərin və kəndlərin yerləyeksan edilməsinə, böyük iqtisadi və mənəvi tənəzzülə səbəb olan müharibədə Qələbənin qazanılmasında Azərbaycan xalqının böyük xidmətlərini xüsusi vurğulayıb. Diqqətə çatdırıb ki, məhz bu xidmətlərə görə Ümummilli Liderin ali siyasi hakimiyyətə qayıdışından sonra 9 May ölkəmizdə dövlət bayramları sırasına daxil edilib. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyev də müharibə veteranlarına diqqət və qayğısını əsirgəmir.





Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru İlqar Niftəliyev, müharibə veteranları Hikmət Mahmudov və Daməd Nəbiyev çıxış edərək azərbaycanlı döyüşçülərin müharibədə göstərdikləri qəhrəmanlıqlardan, sərkərdəlik məharətindən, ən çətin tapşırıqları belə canı-qanı bahasına yerinə yetirmələrindən, partizan dəstələrində döyüşən soydaşlarımızın xatirələrinin bu gün də xarici dövlətlərdə ehtiramla yad edildiyindən danışıblar. Göstərdikləri şücaətə görə həmvətənlərimizdən 130 nəfərinin Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldükləri, minlərlə döyüşçümüzün yüksək orden və medallarla təltif olunduqları diqqətə çatdırılıb.

# Stalinqrad döyüşçüsü-Kamal Bağırov

Böyük Vətən müharibəsi iştirakçısı Bağırov Kamal İbiş oğlu 8 İyul 1918-ci ildə Cəlilabad rayonunun Cəngan kəndində kolxozçu ailəsində dünyaya göz açmışdır. O, 1939 - cu ildə ordu sıralarına çağırılmışdır. İkinci Dünya müharibəsində Kamal Bağırov Xorkov, Poetova, Kişinyov, Odessa, Binnetsa, Stalinqrad və bir sıra cəbhələrdə alman-faşistlərinə qarşı mərdliklə vuruşmuşdur. Qeyd etmək lazımdır ki, Kamal Bağırov motoskletçi- kəşfiyyatçı kimi dəfələrlə alman ordusunun dərinliklərində düşmənin canlı qüvvələrini və texnikasını məhv etmiş, xeyli sayda düşmən əsir götürmüşdür. Məhz bunlara görə komandanlıq onun



igidliyini və cəsurluğunu nəzərə alıb ən mühüm tapşırıqları ona etibar edərdi.

Stalinqrad şəhərinin azad olunmasında Kamal Bağırovun müstəsna rolu olmuşdur. Döyüşlərin birində o, həmyerlimiz 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovala görüşmüşdür.

Böyük Vətən müharibəsi veteranı Kamal Bağırov bir sıra düyüş orden-medalları ilə təltif olunmuşdur. Müharibədən sona öz doğma kəndində uzun müddət kolxoz sədri işləmiş öz vəzifə borcunu ləyaqətlə yerinə yetirmişdir.

Kamal Bağırov gözəl ailə başçısıdır, 9 övladı 30 nəvəsi, 56 nəticəci, 15 kötücəsi var. Böyük Vətən müharibəsinin veteranı Kamal Bağırovun hazırda səhətində problemlər var, ona Allahdan şəfa diləyirik.

***Adil Babaşov,***
***polkovnik-leytenat,***
***Respublika Veteranlar Təşkilatının baş mütəxəssisi***

## Abşeron rayonunda Qələbə Günü böyük coşqu ilə qeyd edilib

Qələbə bayramı münasibətilə Abşeronda keçirilən tədbirlərin iştirakçıları əvvəlcə Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Novxanı kəndindəki abidəsini ziyarət edib, önünə əklil və gül dəstələri düzüb, xatirəsini anıblar.



Tədbir Xırdalan şəhərinin mərkəzində müharibə qurbanlarının xatirəsinə ucaldılan "Ana abidəsi" qarşısında davam etdirilib.

Tədbirdə çıxış edənlər müharibə illərində Sovet ordusunun hərbi texnikasının məhz Bakı nefti hesabına işlədiyi, azərbaycanlıların döyüşlərdə qəhrəmanlıq göstərib, qələbədə böyük paylarının olduğunu bildiriblər.

Böyük Vətən müharibəsinin veteranları çıxışlarında ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onlara və müharibə veteranlarının ailə üzvlərinə diqqət və qayğının bərpa olunduğunu minnətdarlıq hissi ilə qeyd ediblər.

Sonra Abşeron rayon mədəniyyət müəssisələrinin hazırladığı müharibənin ağrılı-acılı günlərini xatırladan ədəbi -bədii kompozisiya nümayiş olunub.

Qələbə bayramında Milli Ordunun "N" saylı hərbi hissəsinin əsgərləri, şəhərinin məktəblərini təmsil edən "Şahin" komandaları hərbi orkestrin müşayiəti ilə Xırdalan şəhərinin mərkəzi küçələri boyunca yürüş ediblər.

Heydər Əliyev parkında Qələbə Günü və Ümummilli Liderin anadan olmasının 95-ci ildönümü münasibətilə respublikanın incəsənət



ustalarının iştirakı ilə baram konserti təşkil olunub. Tədbir möhtəşəm bayram atəşfəşanlığı ilə başa çatıb.

# Slovakiyanın alman faşizmindən azad edilməsində şücaət göstərmiş həmvətənlərimizin xatirəsi anılıb

İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbə münasibətilə Bratislavada yerləşən hərbi-memorial kompleksi – “Slavin”də və Bratislavanın faşistlərdən azad olunmasında şücaət göstərmiş əsgərlərin şərəfinə ucaldılmış “Qələbə monumenti” abidə-kompleksində ənənəvi anım mərasimləri keçirilib.

Slovakiyanın Prezident Aparatının, Nazirlər Kabinetinin əməkdaşlarının, parlamentin üzvlərinin, Bratislavanın meriyasının, diplomatik korpusun və İkinci Dünya müharibəsi veteranlarının iştirak etdiyi bu tədbirlərə Azərbaycanın Slovakiyadakı diplomatik nümayəndəliyinin rəhbəri və müvəqqəti işlər vəkili Cəfər Hüseynzadə, ölkəmizin Bratislavadakı fəxri konsulu Cəlal Qasımov və həmin ölkədə təhsil alan azərbaycanlı tələbələr qatılıblar.

6845 nəfər sovet əsgərinin dəfn olunduğu hərbi-memorial kompleksi – “Slavin”də İkinci Dünya müharibəsində həlak olmuş həmvətənlərimizin xatirəsi ehtiramla yad edilib, Azərbaycan bayrağı ucaldılıb və abidə qarşısında əklil qoyulub.



Xatırladaq ki, Azərbaycanın Slovakiyadakı diplomatik nümayəndəliyi və fəxri konsulluğu tərəfindən İkinci Dünya müharibəsi zamanı qırmızı ordu sıralarında Slovakiya ərazisində döyüşmüş və dəfn edilmiş 281 nəfər Azərbaycan əsgər və zabitinin adları aşkar edilib.

*Elgün Niftəli*
*AZƏRTAC-ın xüsusi müxbiri*
*Bratislava*

# Rusiyada Qələbə paradı keçirilib

*Rusiyanın paytaxtı Moskvada faşizm üzərində qələbənin 73-cü ildönümü təntənə ilə qeyd edilib.*



Böyük Vətən Müharibəsində qazanılan Qələbə münasibətilə Moskvada hərbi parad keçirilib. Paradı izləmək üçün minlərlə insan Qırmızı meydana toplaşıb. Paradda Rusiya prezidenti Vladimir Putin və baş nazir Dmitri Medvedevlə yanaşı bir çox dövlət rəsmiləri iştirak ediblər.

13 mindən çox hərbçi, 159 döyüş texnikası, 75 hərbi təyyarə və helikopterin iştirak etdiyi paradı Rusiyanın müdafiə naziri, ordu generalı Sergey Şoyqu qəbul edib. Müdafiə naziri prezidentə bütün növ qoşunların məruzə etdikdən sonra hərbi parad başlayıb. Öncə hərbi məktəblərin kursantları, hava və quru qoşunların əsgər və zabitləri, dəniz qoşunları, daxili qoşunların əsgərləri parada çıxıb.



Müdafiə Nazirliyinin Hərbi Universiteti və digər ali hərbi məktəblərin məzunları olan qadın hərbi qulluqçular da paradda iştirak ediblər.

Rusiya Silahlı Qüvvələrinin quru, hava və dəniz qoşunları, xüsusi təyinatlılarının iştirak etdiyi paradda “Smerç” reaktiv yaylım sistemləri, “Pantsir-S” və "S-400" zenit-raket



kompleksləri, “İsgəndər-M” raketləri kimi silah və hərbi-texnika nümayiş olunub. Parad eyni zamanda Rusiya ordusunun gücünü nümayiş etdirmək məqsədi daşıyıb. Moskva ilə yanaşı, Rusiyanın müxtəlif şəhərlərində də hərbi paradlar keçirilib.

# Gürcüstan əhalisinin 10 faizi İkinci Dünya müharibəsində həlak olub

İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin əldə olunmasında Gürcüstan vətəndaşlarının da rolu böyükdür. Bu müharibədə 700 min Gürcüstan vətəndaşı iştirak edib. Onların da 300 mini həlak olub. Döyüşənlər və həlak olanlar sırasında Gürcüstan vətəndaşı olan azərbaycanlılar da olub.

Gürcüstanın Veteranların İşi üzrə Dövlət Xidmətinin departament rəisinin müavini Valeri Caparidze AZƏRTAC-a bildirib ki, Gürcüstan ərazisi faşist Almaniyası tərəfindən işğala və bombardmana məruz qalmayıb. Buna baxmayaraq 1941-1945-ci illərdə keçmiş sovet ordusu sıralarında 700 min Gürcüstan vətəndaşı döyüşüb. Onların da 300 mini həlak olub. Bu da ümumi əhalinin təqribən 10 faizini təşkil edib. Döyüşənlər və qəhrəmanlıq göstərərkən həlak olan Gürcüstan vətəndaşları sırasında minlərlə azərbaycanlı da olub. Təəssüf ki, bu gün o azərbaycanlılardan 20-25 nəfəri sağdır. 2016-cı ildə onların sayı 60, 2017-ci ildə isə 33 nəfər olub.



Azərbaycanlı veteranların 5 nəfəri paytaxt Tbilisidə, 20 nəfəri Kvemo Kartli bölgəsində yaşayır. Kvemo Kartlidə yaşayan veteranların 5-i əlildir. 2016-cı ildə Gürcüstanda İkinci Dünya müharibəsi veteranlarının sayı 1296 nəfər olub. Təəssüf ki, 2018-ci ildə isə 676 nəfərə qədər azalıb.

Xidmətin təhlükəsizlik departamentinin rəisi İlyas Rzayevin sözlərinə görə, Gürcüstan hökuməti bu il də Böyük Vətən müharibəsi veteranlarına birdəfəlik yardım ayırıb. Döyüşlərdə iştirak edərək fədakarlıq göstərən on minlərlə Gürcüstan vətəndaşı müxtəlif mükafatlara layiq görülüb. 167 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Onların sırasında Reyxstaq üzərində Mixail Yeqorovla birlikdə qələbə bayrağını qaldıran kiçik serjant Meliton Kantariya da var.

Məlumat üçün qeyd edək ki, bu gün Gürcüstanda da 9 May - Qələbə bayramı geniş qeyd olunur. Səhər saatlarında Gürcüstan Prezidenti, Baş nazir, parlamentin sədri və digər rəsmi şəxslər, siyasi partiya rəhbərləri Tbilisinin mərkəzindəki Vake parkda “Naməlum əsgər”in məzarı üstünə çələng və gül dəstələri qoyublar.

*Xətayi Əzizov*
*AZƏRTAC-ın xüsusi müxbiri*
*Tbilisi*

**Baş redaktor**
Ülvi İBRAHİMLİ

Məsul katib
Şəhla QARAYEVA

Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.
**Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti

“Azərbaycan Veteranı” qəzeti.
**VÖEN:** 1701285981
verilmə tarixi - 23.11.2011

**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34
**Əlaqə telefonu:** 012 440-21-08
**e-mail:** az.veteran@mail.ru
**Dövlət qeydiyyat nömrəsi** - 3486
**Dövlət qeydiyyat tarixi** - 19.10.2011

Qəzet ayda iki dəfə “Azərbaycan Veteranı” qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və “Veteran Nəşriyyatı” mətbəəsində nəşr olunur.
Qiyməti 60 qəpik
Tiraj: 1290